**Ermənistan Xarici İşlər Nazirliyi 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı "qırğın"ın törədilməsi ilə bağlı əsassız bəyanat yayıb. Bu ölkənin rəsmi qurumunun verdiyi bəyanat ermənilərin hansı xislətə sahib olduğunu bir daha nümayiş etdirir. Tarix boyu azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparan, onları tarixi yurd-yuvalarından didərgin salan bədxah qonşularımız bu cür açıqlama verməklə etdikləri cinayətləri ört-basdır etməyə çalışırlar. Azərbaycan-erməni münasibətlərinin tarixinə nəzər saldıqda hansı xalqın kütləvi qırğınlardan və sürgünlərdən əziyyət çəkdiyi gün kimi ortaya çıxır.**

# Ermənilərin vəhşilikləri unudulmayacaq







Azərbaycan xalqı zəngin mədəniyyəti və qədim tarixi ilə əsrlər boyu Cənubi Qafqazda sülh və əməkdaşlıq nümunəsi göstərmişdir. Lakin ermənilər tərəfindən törədilən təxribatlar və qırğınlar bu regionun ən faciəvi səhifələrini təşkil edir. Bu qırğınlar yalnız azərbaycanlıları fiziki məhv etməklə kifayətlənməmiş, eyni zamanda xalqın mənəvi irsinə, tarixinə və mədəniyyətinə qarşı genişmiqyaslı hücumlar formasında da özünü göstərmişdir. 1918-ci ilin mart-aprel aylarında Bakı və ətraf bölgələrdə Stepan Şaumyanın rəhbərliyi altında fəaliyyət göstərən bolşevik-erməni dəstələri dəhşətli qətliamlar törətdilər. Nəticədə minlərlə azərbaycanlı, o cümlədən qadınlar, uşaqlar və yaşlılar amansızlıqla qətlə yetirildi. Bakı şəhəri ilə yanaşı, Şamaxı, Quba, Qarabağ və digər bölgələrdə də qırğınlar baş verdi. Təkcə Şamaxıda 7 mindən çox insan, Qubada isə minlərlə azərbaycanlı qətlə yetirildi. Bu soyqırımı yalnız azərbaycanlıların məhv edilməsinə yönəlməmiş, həm də onların tarixi-mədəni abidələrinin dağıdılması ilə nəticələnib.

Xocalı soyqırımı erməni silahlı birləşmələrinin azərbaycanlılara qarşı törətdiyi ən dəhşətli qətliamlardan biridir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verən bu faciə nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 yaşlı şəxs xüsusi qəddarlıqla qətlə yetirildi. Xocalının dinc əhalisi yalnız azərbaycanlı olduqları üçün məhv edildi. Azərbaycan Qarabağ bölgəsini işğaldan azad edəndən sonra məlum oldu ki, ermənilər əraziləri tərk edərkən oralara yüz minlərlə mina yerləşdiriblər. Bu minalar yüzlərlə günahsız azərbaycanlının ölümünə və ağır yaralanmasına səbəb oldu. Mina terrorizmi ermənilərin azərbaycanlılara qarşı apardığı uzunmüddətli məhv siyasətinin tərkib hissəsidir.

Ermənistanın hazırkı Xarici İşlər Nazirliyi öz sələflərinin təcrübəsini davam etdirərək uydurma açıqlamaların verilməsi ilə məşğuldur. Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Ermənistan XİN-in 15 yanvar 2025-ci il tarixli bəyanatı ilə bağlı şərhində bildirib ki, Ermənistan Xarici İşlər Nazirliyinin guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız bəyanatı bu ölkənin Azərbaycana qarşı sistematik etnik nifrət və dözümsüzlük siyasətinin hələ də davam etdirildiyini göstərir.

"Ermənistan XİN-ə xatırladırıq ki, etnik təmizləmə və kütləvi qırğın siyasəti məhz Ermənistana və ermənilərə xas xüsusiyyətdir. 1920-ci illərin əvvəllərinə qədər azərbaycanlılara qarşı həyata keçirilən kütləvi qırğınlardan və sürgünlərdən əlavə, 1948-1953-cü illərdə və 1987-ci ildən başlayaraq Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından ümumilikdə 450 min nəfərdən çox azərbaycanlının kütləvi surətdə qəddarcasına deportasiya edilməsi faktları Ermənistan tərəfinə yaxşı məlumdur. Ermənistan XİN bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində bir milyondan çox Azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədi güdür. Ermənilərin saxta təbliğatının tərkib hissəsi olan uydurma "Sumqayıt qırğınları"nın azərbaycanlıların deportasiyası və kütləvi şəkildə qətlə yetirilməsinə haqq qazandırmaq üçün ermənilərin düşünüb hazırladığı və Eduard Qriqoryan vasitəsilə icra olunan bir plan olduğunu bütün dünya bilir. Bakı nefti və Azərbaycanın zənginliklərinin hesabına varlanan və qazandıqları vəsaitləri azərbaycanlıların qırğınına və tarixi abidələrinin məhvinə xərcləyən ermənilərin kompensasiya almaq hüququnun olduğunun iddia olunması isə absurd təfəkkürdən xəbər verir. Ermənistan tərəfindən tarixi kütləvi şəkildə saxtalaşdıran təbliğat sülhə xidmət etmir və təhlükəlidir", - deyə Azərbaycan XİN rəsmisi vurğulayıb.

Qərbi Azərbaycan İcması da Azərbaycan SSR-də ermənilərə qarşı qanunsuzluq törədildiyini iddia edən əsassız və böhtan dolu bəyanatı qınayıb. Bəyanatın tonu həm də Ermənistanın İkinci Qarabağ müharibəsindən əvvəlki ritorikasını xatırladır. Əvvəla vurğulayaq ki, etnik təmizləməni törədən dövlət Ermənistandır. Hakimiyyət illəri Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin böyük hissəsinin aparıldığı dövrə təsadüf edən Levon Ter-Petrosyanın prezident olduğu 1993-cü ildə etdiyi məlum çıxışı azərbaycanlılara qarşı etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu bir daha təsdiq edir. Bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb. Bəyanatda daha sonra qeyd edilir: "Həmçinin xatırlatmaq yerinə düşür ki, L.Ter-Petrosyan həmin çıxışında Azərbaycan SSR-dən ermənilərin köçünün məhz Ermənistanın özü tərəfindən təşkil edildiyini də bildirib. L.Ter-Petrosyanın çıxışına nəzər yetirək: "Hərəkat vaxtında başlamasaydı, bu gün Azərbaycanda 500 min erməni qalacaqdı. Onlar fiziki cəhətdən məhv edilməsələr belə, bu, Ermənistanı diz çökdürmək üçün ən güclü rıçaq olardı. Onların əhəmiyyətli bir hissəsi, 300 mindən çox insan Ermənistanda sığınacaq tapdı. Bu da milli problem idi, hərəkatımız sayəsində həll olunan böyük miqyaslı problem". Bütün bunlar sübut edir ki, Ermənistan işğalı mümkün hesab etmədiyi Azərbaycan ərazilərindən ermənilərin köçünü təşkil edərək, iki xalqın nümayəndələrinin dinc-yanaşı yaşamaq təcrübəsini aradan qaldırmağı və orada monoetnik dövlət yaratmağı hədəfləmişdir. Ermənistan hökuməti böhtan və nifrət dolu bəyanatlar vermək əvəzinə, irqçiliyinə və monoetnik siyasətinə son verməli, Qərbi azərbaycanlıların qayıdışına şərait yaradaraq, oradakı multietnik mühiti bərpa etməlidir".

Qeyd edək ki, Azərbaycan həm 44 günlük İkinci Qarabağ müharibəsində, həm də 2023-cü ildə Qarabağdakı antiterror tədbirlərində beynəlxalq hüquq normalarına və humanizm prinsiplərinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirib. Ermənistan tərəfindən mülki obyektlərin və dinc əhalinin hədəfə alınmasına baxmayaraq, Azərbaycan yalnız hərbi infrastruktur və silahlı qüvvələri hədəf alaraq müharibənin qanunlarına riayət edib. Ermənistan isə bunun əksinə olaraq Birinci Qarabağ müharibəsi (1988-1994) dövründə Azərbaycan xalqına qarşı çoxsaylı vəhşiliklər törədib, beynəlxalq hüquq normalarını pozaraq dinc sakinləri hədəf alıb, etnik təmizləmə siyasəti həyata keçirib və insanlıq əleyhinə cinayətlər törədib. Bu cinayətlər həm azərbaycanlıların tarixi torpaqlarından deportasiyası, həm də işğal edilən ərazilərdə baş verən qanlı hadisələr ilə yadda qalıb. Lakin Ermənistanın Birinci Qarabağ müharibəsində törətdiyi cinayətlərə beynəlxalq hüquq çərçivəsində lazımi qiymət verilməyib. Azərbaycan xalqı həm öz torpaqlarını, həm də tarixini qorumaq üçün mübarizəsini davam etdirib. Bu hadisələr dünya ictimaiyyətinə Ermənistanın işğalçı və vandalizm siyasətini nümayiş etdirməklə yanaşı, Azərbaycanın sülh və ədalət uğrunda mübarizəsini də göstərir. Ermənilərin vəhşilikləri heç bir zaman unudulmayacaq.

**Musa BAĞIRLI,**
**"Respublika".**